# BALIQLARIN İXTİOFTİRİOZU



## Etiologiyası.

- Uzunluğu 0,5-1 mm olan İchthyophtirius multifiliis bərabər kirpikli infuzordur. Parazitin bədəni dairəvi və ya yumurtavaridir.

## Epizootologiyası.

- Xəstəlik qızılbalıq yetişdirmə zavodlarında və çəki balığın yetişdirildiyi təsərrüfatlarda qeyd olunur. İnvaziyaya bütün yaş qruplarından olan balıqlar həssas olmaqla, xəstəlik cavan və törədici balıqlarda daha ağır formada keçir. Xəstəliyin mənbəyi xəstə balıqlardır. İxtioftirioza ən çox yaz və yayda təsadüf olunur.

## Klinik əlamətləri.

- İxtioftrioz dəri, üzgəclər və qəlsəmələrin iltihabım törətməklə, xəstəliyin başlanğıcında qəlsəmələr tünd-albah rəngində, qan sağıntılı olur. Sonralar qəlsəmələr qansızlaşır və dəri üzərində xırda ağımtıl düyünlər görünür. Xəstə balıq narahat olur, suyun dibindən səthinə qalxır, dairəvi hərəkət edir, xarici qıcıqlara cavab vermir.

## Diaqnozu

- Xəstəlik əlamətlərinə, bədən səthindən, qəlsəmələrdən və üzgəclərdən götürülmüş patmaterialda çoxlu miqdarda parazitin tapılmasına əsasən qoyulur.

## Müalicəsi

- Xəstə balıqların müalicəsində xörək və ingilis duzunun 3,5:1,5 nisbətində götürülmüş qarışığından hazırlanmış 0,6-0,7%-li məhlul işlədilir. Suyun hərarətindən asılı olaraq belə vannalarda xəstə balıqlar 3-11 gün saxlanır. Həmçinin müalicə məqsədilə kürüləmə göllərində 1l suya 0,1-0,2 mq, yetişdirmə göllərində 0,5-0,7 mq, qışlama göllərində 05,-0,9 mq olmaq hesabı ilə briliyant-yaşılı və metilen göyü tətbiq edilir. Bundan əlavə balıqların müalicə və profilaktikasında bənövşəyi «K» preparatının 1:2000000 nisbətində məhlulu 10-15 dəqiqə tətbiq edilir.

## Profilaktika və mübarizə tədbirləri.

- İxtioftirioza görə qeyri- sağlara göllərin suyu boşaldılır. 8-10 gün qurudulur, boşaldılması mümkün olmayan hissələri xlorlu (3-5 s/hek) və ya sönməmiş (25 s/hek) əhənglə dezinfeksiya olunur.
- Törədicilər ilkin gündən kürüləmə göllərindən kənar edilməli, körpə balıqlar kürüdən çıxandan 5-6 gün sonra yetişdirmə göllərinə keçirilməlidir.